**UOT 34: 343.2/.7**

**Günay Səhhət qızı Əliyeva**
Azərbaycan Milli Elmlər Akademiyası
Hüquq və İnsan Haqları İnstitutu
Cinayət hüququ və cinayət prosesi
şöbəsinin elmi işçisi
e-mail: gunay-aliyeva-2019@mail.ru

# ÖZÜNÜ ÖLDÜRMƏ HƏDDİNƏ ÇATDIRMAYA GÖRƏ CİNAYƏT MƏSULİYYƏTİ

**Açar sözlər:** özünü öldürmə, cəhd həddi, cinayət məsuliyyəti, yaşamaq hüququ, cinayət tərkibi, cinayət qanunvericiliyi, zərərçəkmiş, təqsirkar, hədə-qorxu, təhqir, böhtan

**Keywods:** suicide, attempt limit, criminal liability, right for life, criminal composition, criminal law, victim, culprit, intimidation, insult, slander

*Giriş. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir. Vətəndaşın dövlətdəki hüquqi statusunu təyin edən hüquq və azdlıqların məcmusu arasında əhəmiyyət baxımından ilk yerlərdən biri də insanın yaşamaq hüququdur.*

*Məhz bu mövqelərdən çıxış edərək Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsi, hər kəsin yaşamaq hüququnun təmin edir. İnsanın yaşamaq hüququnun əhəmiyyəti və onun qanunla qorunan ən yüksək sosial dəyər olması faktı, onu qorumaq vəzifəsi səlahiyyətli orqanlar qarşısında birinci yerdə durur. Cinayət qanunvericiliyi bu vəzifənin əsaslandığı hüququ çərçivədə yerinə yetirilməsini təmin etməkdə önəmli rol oynayır. Xüsusilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsidə insanın yaşamaq hüququnu qoruyan bir sıra normalar vardır.*

*Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsinin Xüsusi hissəsinin "Şəxsiyyət əleyhinə olan cinayətlər" bölməsində təsbit olunmuş cinayət-hüquq normaları şəxsiyyəti müxtəlif aspektlərdən qoruyur və eyni zamanda şəxsiyyəti xarakterizə edən müxtəlif dəyərləri müdafiə və mühafizə altına alır. Cinayət qanunvericiliyi tərəfindən cinayət-hüquqi mühafizə altına alınan dəyərlərdən biri də şəxsiyyətin, yəni insanın sağlamlığı təhlükəsizliyidir. AR CM-də qeyd edilən bölmənin XVIII fəslində həyat və sağlamlıq əleyhinə yönələn cinayətlərə görə məsuliyyət nəzərdə tutan normalar müəyyən olunmuşdur. Özünü öldürmə həddinə çatdırma (maddə 125) əməli də həyat əleyhinə cinayətlər sistemində nəzərdə tutulmuşdur.*

Dövlətin cinayət məsuliyyətinə cəlb etməkdən imtina etməsi iki əsasla – ümumi və xüsusi əsasla həyata keçirilir. Cinayət məsuliyyətindən azad etmənin ümumi əsasları CM-in 72, 73, 74, 75, 81-ci maddələrində, cinayət məsuliyyətindən azad etmənin xüsusi əsasları isə CM-in 144, 214, 234, 274, 312-ci və s. maddələrində təsbit edilmişdir (7, 107).

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci maddəsində özünü öldürmə həddinə çatdırmaya görə məsuliyyət nəzərdə tutan normanın dispozisiyasından görünür ki, şəxsin özünü öldürməsi və ya özünü öldürməyə cəhd etməsi o halda özünü öldürmə həddinə çatdırma cinayəti hesab edilir ki, zərərçəkmişin özünü öldürməsinə və ya özünü öldürməsinə cəhd etməsinə təqsirkar şəxsin ondan maddi, xidməti və ya sair cəhətdən asılı olan zərərçəkmiş şəxslə amansız rəftarı – onu döyməsi, işgəncə verməsi, gücü çatmayan fiziki işlərə məcbur etməsi, onun ləyaqətini mütəmadi olaraq alçaltması – onu təhqir etməsi, söyməsi, böhtan atması və hədə-qorxu – maddi və sair yardımdan məhrum etməklə, işdən çıxarmaqla, yaşayış sahəsindən qovmaqla səbəb olsun.

Qüvvədə olan qanunvericiliyə görə, özünü öldürmə həddinə çatdırma ilə bağlı cinayət məsuliyyətinə cəlbetmə üçün zərərçəkmiş şəxs qismində yalnız təqsirkardan maddi, xidməti və sair cəhətdən asılı şəxs çıxış edə bilər. Yəni, iki eyni statuslu adam arasında amansız rəftar, ləyaqətin mütəmadi olaraq alçaldılması, hədə-qorxu və s. ilə şəxsi özünü öldürmə həddinə çatdırma halı baş versə, bu, məsuliyyətə səbəb olmayacaq. Nəzərə alınmalıdır ki, cinayət işində obyektivliyə nail olmaq üçün məhkəmə psixoloji ekspertizası təyin edilir. Bu ekspertiza şəxsin ölümündən əvvəlki

emosional halını, psixi davranışını və s. aydınlaşdırmalıdır.

Eyni zamanda öz həyatına son qoymağa yönəlmş hərəkətlər, zərəçəkmişin şəxsi keyfiyyətlərindən asılıdır və davranışı ilə dolayı səbəbli əlaqədədir. Eyni zamanda, əməllə onun ehtimal olunan nəticələri arasında səbəbli əlaqə qurmaq üçün təhdidin, qəddar rəftarın intihar şərtlərindən biri olub-olmadığını da müəyyən etmək lazımdır (8).

Azərbaycan Respublikası CPM-nin 221.1-ci maddəsində göstərilib ki, ibtidai araşdırmanın aparılması zamanı müstəntiq cinayətin törədilməsinə imkan yaradan halları (səbəb və şəraiti) müəyyən etməlidir. Bu halları müəyyən etdikdə müstəntiq zərurət olduqda müvafiq hüquqi və ya vəzifəli şəxsin ünvanına cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması üçün tədbirlər görülməsi barədə təqdimat göndərir (4, 262).

Qanunvericilik cinayətin törədilməsindən sonra səbəb və şəraitin müəyyən edilməsi, aradan qaldırılması üçün tədbirlər görülməsini birmənalı olaraq istintaq orqanının üzərinə qoyur.

Azərbaycan Respublikasının 1999-cu ildə qəbul edilmiş CM-də özünü öldürmə həddinə çatdırmaya görə cinayət məsuliyyəti 125-ci maddədə müəyyən olunmuşdur. Lakin, bu cinayət növü Azərbaycan cinayət qanunvericiliyi üçün yenilik olmamış, belə ki, 1922-ci, 1927-ci və 1960-cı illərdə qəbul edilmiş CM-də də özünü öldürmə həddinə çatdırmaya görə cinayət məsuliyyəti öz əksini tapmışdır. Əlbəttə, hər bir cinayət qanununda bu cinayətin tərkib elementləri və məsuliyyət məsələləri bir qədər fərqlənirdi.

9 dekabr 1922-ci il Azərbaycan İctimai Şura Cümhuriyyətinin Cəza Məcəlləsinin 148-ci maddəsinə görə, yaşadolmamış şəxsi, ya elədiyi işin mahiyyəti və xassəsini anlamağa və ya öz əməllərinə rəhbərlik etməyə iqtidarı olmayan şəxsi öz-özünü öldürməyə təhrik və ya kömək etmək, bu hərəkətlər nəticəsində həmin şəxs öz-özünü öldürərsə və ya öldürməyə qəsd etmiş olarsa – üç llədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılırdı (5, 98). Beləliklə də, bu cinayətin obyektiv cəhəti özünü öldürməyə yalnız kömək və ya sövq etmə hərəkətlərini daxil edirdi. Zərərçəkmişlərin dairəsi də məhdudlaşdırılmışdır: qanunvericilik yalnız yetkinlik yaşına çatmayanların və ya törətdikləri əməlin xüsusiyyətlərini və ya əhəmiyyətini dərk etməyə və ya öz hərəkətlərinə rəhbərlik etməyə qadir olmayan şəxslərin barəsində belə hərəkətləri cinayət hesab edirdi.

3 dekabr 1927-ci il Azərbaycan İctimai Şura Cümhuriyyətinin Cəza Məcəlləsinin 178-ci maddəsində özünü öldürmə həddinə çatdırma cinayətləri əvvəlki qəbul edilmiş məcəllədən bir qədər fərqli göstərilmişdir. 178-ci maddənin 1-ci hissəsinə görə "başqa bir şəxsdən maddi və ya başqa cəhətdən asılı olan bir şəxs ilə amansız rəftar etməklə və ya bu kimi yollarla onu öz-özünü öldürmək və ya öldürməyə qəsd etmək dərəcəsinə çatdırmaq" cinayət sayılırdı və bu cinayət beş illik müddətə qədər azadlıqdan məhrum etmə ilə cəzalandırılırdı. 1936-cı ildə (14 iyul tarixli qərara əlavə edilmiş 2-ci hissənin mətni) 178-ci maddəyə 2-ci hissə əlavə olunmuşdur: "öz-özünü öldürmək və ya öldürməyə qəsd etmək" özünü yandırmaq üsulu ilə baş verirdisə bu ağırlaşdırıcı hal kimi qiymətləndirilirdi və təqsirkar on ilə qədər azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırılırdı.

Eyni hərəkətlər nəticəsində özünü yandırmaq baş verərsə, on illik müddətə qədər azadlıqdan məhrum etməyə səbəb olurdu.

1927-ci il CM-in 178-ci maddəsinin 3-cü hissəsi 1922-ci il CM-nin 148-ci maddəsinə oxşar idi. Belə ki, "yaşadolmamış şəxsi, ya elədiyi işin mahiyyəti və xassəsini anlamağa və ya öz əməllərinə rəhbərlik etməyə iqtidarı olmayan şəxsi öz-özünü öldürməyə təhrik və ya kömək etmək, bu hərəkətlər nəticəsində həmin şəxs öz-özünü öldürərsə və ya öldürməyə qəsd etmiş olarsa – üç illik müddətə qədər azadlıqdan məhrum etməyə səbəb olurdu (5, 202).

1922-ci il CM-dən fərqli olaraq 1927-ci il CM-si zərəçəkmiş şəxs qismində istənilən bir şəxsin olması ehtimalını və eyni zamanda zərərçəkmişin təqsirkardan maddi və ya başqa cəhətdən asılılığını, bundan başqa şəxsin öz-özünü öldürməyə cəhdi də tərkibin obyektiv cəhətinə daxil etmişdir. 1827-ci il CM-ni öncə və ondan sonra qəbul edilən Cinayət Məcəllələrindən fərqləndirən cəhətdən biri də odur ki, 1927-ci il CM-də zərərçəkmiş şəxsin özünü məhz yandıraraq özünə qəsd etməsi ağırlaşdırıcı hal kimi göstərilmişdir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, məhz 1927-ci il CM-də bu cinayətə görə məsuliyyətin diferensiasiyasına daha yüksək dərəcədə riayət olunmuşdur.

8 dekabr 1960-cı il Azərbaycan SSR Cinayət Məcəlləsinin 100-cü maddəsinə görə, təqsirli şəxsdən maddi cəhətdən və ya sair cəhətdən asılı olan zərər çəkmiş şəxsi onunla amansız rəftar etmə və ya onun şəxsi ləyaqətini mütəmadi olaraq alçaltma yolu ilə özünü öldürmə dərəcəsinə və ya özünü öldürməyə sui-qəsd dərəcəsinə çatdırma – yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılırdı. Bu maddənin 2-ci hissəsinə görə isə eyni hərəkətlər təqsirli şəxsdən heç bir asılılığı olmayan şəxs barəsində edildikdə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılırdı (5, 684-685). Beləliklə, 1960-cı il cinayət qanunvericiliyi təqsirli şəxsdən heç bir asılılığı olmayan şəxsin özünü öldürmə dərəcəsinə və ya özünü öldürməyə sui-qəsd dərəcəsinə çatdırılmasını da cinayət kimi qeyd etmişdir.

1978-ci il Azərbaycan SSR Cinayət Məcəlləsinin elmi-praktiki kommentariyasının – özünü öldürmə həddinə çatdırma adlanan 117-ci maddəsində qeyd edilir ki, hədələmə, amansız rəftar etmə və ya şəxsi ləyaqətinin mütəmadi alçaldılması yolu ilə şəxsi özünü öldürmə və ya özünü öldürməyə sui-qəsd həddinə çatdırma – orta ağır cinayətdir. Təqsirkardan maddi və ya sair asılılığı olan şəxs barəsində törədilmiş eyni əməl – orta ağır cinayətdir.

Eyni zamanda həmin kommentariyada – özünü öldürməyə təhrik etmə adlanan 118-ci maddədə – özünü öldürməyə təhrik etmə, yəni dilə tutma, aldatma yolu ilə və ya digər yolla başqa şəxsdə özünü öldürmək üçün qətiyyət yaratma, şəxs özünü öldürmüş və ya özünü öldürməyə sui-qəsd etmişdirsə – orta ağır cinayət sayılmışdır (5, 1133).

Qüvvədə olan 1999-cu il Azərbaycan Respublikasının Cinayət Məcəlləsində özünü öldürmə həddinə çatdırma cinayəti əvvəlki məcəllələrdə olduğu kimi şəxsiyyət əleyhinə olan cinayətlərin sisteminə daxil edilmişdir. 1999-cu il CM-in 125-ci maddəsinə görə "təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma – üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

31 may 2011-ci il tarixli, 137-IVQD nömrəli Qanunla 125-ci maddədən "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri çıxarılmışdır (2).

Hazırda AR CM-nin 125-ci maddəsi aşağıda kimi redaksiya edilmişdir:

Təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma –

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Bu cinayətin ictimai təhlükəliliyi nəinki başqa şəxsin özünü həyatdan məhrumetməsi və ya buna cəhd göstərməsi, həm də təqsirkarın mənəviyyatından, insanlıqdan kənar, amansız hərəkətlər etməsi ilə xarakterizə olunur. Bu cinayətin obyekti başqa şəxsin həyatıdır. Bu cinayətdən zərərçəkmiş şəxs qismində yalnız təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olan şəxs çıxış edə bilər. Belə asılılığı olmayan şəxsin CM-in 125-ci maddəsində göstərilən hərəkətlər nəticəsində özünü öldürməsi və ya özünü öldürməyə cəhd etməsi həmin maddə ilə cinayət məsuliyyətini istisna edir.

Bəhs edilən cinayətin obyekti təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olan şəxsin həyatıdır. Araşdırılan cinayətin obyektiv cəhəti başqa şəxsi onunla amanszı rəftar etmə, onun şəxsi ləyaqətini mütəmadi alçaltma və ya hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə həddinə və ya özünü öldürməyə cəhd həddinə çatdırmaqda ifadə olunur.

Özünü öldürməyə hazırlığı qanun bu cinayətin nəticələri sırasına daxil etmədiyindən, zərərçəkmişin özünü öldürməyə yönələn hazırlıq hərəkətləri, təqsirkarın özünü öldürmə həddinə çatdırmağa görə məsuliyyət müəyyən edən CM-nin 125-ci maddəsi ilə məsuliyyətini yarada bilməz.

Əməlin CM-in 125-ci maddəsi ilə tövsif edilməsi üçün təqsirkarın hərəkətləri qeyri-hüquqi olmalıdır. Lakin onun bütün qeyri-hüquqi hərəkətləri deyil, zərərçəkmiş şəxslə amansız rəftarı, onun ləyaqətini mütəmadi olaraq alçaltma və ya ona hədə-qorxu gəlmədə ifadə olunan hərəkətləri törətməsi zəruridir (3, 438-440).

Araşdırdığımız cnayət – özünü öldürmə, yaxud da özünü öldürməyə cəhd həddinə çatdırma subyektiv cəhətdən dolayı qəsdlə, yaxud da ehtiyatsızlıqla törədilə bilər.

Öldürmə həddinə çatdırmaya görə məsuliyyət o halda yaranır ki, özünü öldürmə və ya öldürməyə cəhd etmə hərəkətinin zərərçəkmiş tərəfindən mahiyyəti dərk edilir, həm də o, özünü həyatdan məhrum etməyi arzu etmiş olur.

Təqsirkar yol verdiyi amansız rəftarla, şəxsin ləyqaqətini müntəzəm alçaltma ilə, yaxud hədə-qorxu gəlmə ilə zərərçəkmişin özünü öldürəcəyini əvvəlcədən görürsə və onun ölümünü arzu edirsə, nəticədə zərərçəkmiş özünü öldürərsə, məsuliyyət qəsdən adam öldürməyə görə (CM-nin 120.1-ci və ya 120.2-ci maddəsi ilə) yaranır.

Azyaşlı uşağı, yaxud psixi vəziyyətinə görə öz hərəkətinin xüsusiyyətlərini və mənasını anlamayan və öz davranışına rəhbərlik etmək qabiliyyətində olmayan şəxsləri özünü öldürməyə vadar edən hərəkətlərə görə məsuliyyət ümumi əsaslarla qəsdən adam öldürməyə görə yaranır (6, 101-102).

Müasir cinayət hüquq elmində baxılan cinayətin subyektiv cəhəti barədə fikir müxtəlifliyi vardır. Belə ki, bir qrup alimlər bu cinayətin birbaşa qəsdlə, o biri qrup alimlər yalnız dolayı qəsdlə həyata keçirildiyini göstərirlər.

Keçmiş qanunvercilikdən fərqli olaraq qüvvədə olan CM-də ictimai təhlükəliliyin xarakteri və dərəcəsindən asılı olaraq cinayətlərin təsnifatı nəzərdə tutulur. Cinayətlərin təsnifatı dedikdə CM-də nəzərdə tutlan cinayət əməllərinin ictimai təhlükəlilik xarakteri və dərəcəsindən asılı olaraq müxtəlif qruplara aid edilməsi başa düşülür.

CM-də cinayətlərin təsnifatı əməlin ictimai təhlüləlilik xarakteri və dərəcəsindən asılı olaraq müəyyən edilir. Az ağır cinayətlərə sanksiyasında yeddi ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulan əməllər aid edilir. Bu cinayət cinayətlərin təsnifatına görə az ağır cinayətlər kateqoriyasına aiddir.

Şərh olunan cinayət subyektiv cəhətdən yalnız dolayı qəsdlə törədilə bilər. Bu cinayət zərərçəkmiş şəxsin özünü öldürməsi və ya özünü öldürməyə cəhd etməsi faktına təqsirkarın psixi münasibəti nöqteyi-nəzərindən ehtiyatsızlıqdan da törədilə bilər.

Özünü öldürmə həddinə çatdırma cinayətinin subyekti 16 yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər (3, 438-440).

Beləliklə də, Azərbaycanda müxtəlif vaxtlarda qüvvədə olan bütün cinayət qanunlarında özünü öldürmə həddinə çatdırma cinayəti fərqli tərkib əlamətləri və ağırlaşdırıcı halları ilə olsa da belə həmişə cinayət hesab edilmişdir. Fikrimizcə, bu cinayətin qüvvədə olan 1999-cu il CM-nin 125-ci maddəsində göstərilən tərkibi təkmil hesab edilə bilər.

## İstifadə edilmiş ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayın Evi. 2019, 116 s.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Digesta nəşriyyatı, 2018, 472 s.
3. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. I hissə. Bakı, 2018, 704 s.
4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı, 2013, 616 s.
5. Cinayət Qanunları Külliyyatı (1920-2000). Bakı: Hüquq Yayın Evi, 2014, 1184 s.
6. Quliyev R.İ., İmanov M.N. Cinayət hüquq. Xüsusi hissə. Bakı: Digesta, 2001, 676 s.
7. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Ali məktəblər üçün dərslik. Yenidən işlənmiş təkrar nəşr. Bakı: Hüquq Yayın Evi, 2018, 724 s.
8. Уголовная ответственность за доведение до самоубийства http://lawtheses.com › ugolovnaya-otvetstvennost-za-do...

**Günay Səhhət qızı Əliyeva**

## Özünü öldürmə həddinə çatdırmaya görə cinayət məsuliyyəti

Cinayət məsuliyyəti Azərbaycan Respublikası Cinayət Məcəlləsində nəzərdə tutulmuş cinayətin tərkibinin bütün əlamətlərini əks etdirən əməlin törədilməsidir. Cinayət məsuliyyəti yalnız cinayət-hüquqi münasibətlər çərçivəsində mövcud olur və həyata keçirilir.

Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsinin 125-ci maddəsi təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırmaya görə məsuliyyət nəzərdə tutur.

Məqalədə özünü öldürmə həddinə çatdırma cinayətinin anlayişi, ictimai təhlükəliliyi və bu cinayətə görə məsuliyyət müəyyən edən cinayət qanunvericiliyinin inkişaf tarixi araşdırılmışdır. Eyni zamanda özünü öldürmə həddinə çatdırmaya görə məsuliyyət nəzərdə tutan cinayət tərkibinin hüquqi təhlili – yəni özünü öldürmə həddinə çatdırma cinayət tərkibinin obyektiv əlamətləri, subyektiv əlamətləri, tövsifi və cəza təyini məsələləri tədqiq edilmişdir.

**Gunay Aliyeva Sahhat**

## For reaching the point of suicide criminal liability

Criminal liability is the completion of an action, which reflects all the signs of the crime provided for in the Criminal Code of the Republic of Azerbaijan. Criminal liability exists and exists only within the framework of criminal-legal relations. Article 125 of the Criminal Code of the Republic of Azerbaijan stipulates that the victim, who is in material, official or other dependence on the offender, is subjected to cruel treatment, self-indulgence, constant humiliation. Attracts responsibility.

The article gives a definition of self-determination, the danger to society and responsibility for this crime, studied the history of the development of the legislature. At the same time, a legal analysis of the criminal liability for suicidal ideation is carried out - that is, there is a crime of suicidal ideation. Objective signs, subjective signs, characteristics and reflections of the body were studied.